# ELMİ, ZƏKASI İLƏ UCALAN İNSAN



*Zirvədən-zirvəyə yollar salmısan,*
*İnsan amilindən ilham almısan,*
*Müəllim adına şərəf gətirib,*
*Elminlə, zəkanla hey ucalmısan.*

Bu sözlər iqtisadçı-alim, dosent-professor Mahmud Quluzadə haqqında deyilib. Çox vaxt ona dağlar oğlu da deyirlər. Bu da təsadüfi deyil. O, 1938-ci il dekabrın 22-də Tovuz rayonunun dağlar qoynunda yerləşən Pələkli kəndində qulluqçu ailəsində doğulub.

1956-cı ildə Aşağı Quşçu kənd orta məktəbini bitirib. Həmin ildə Bakı Statistika Texnikumuna daxil olub.

1959-cu ildə təyinatla Mərkəzi Statistika İdarəsində iqtisadçı vəzifəsində çalışmışdır.

1960-1962-ci illərdə Sovet ordusu sıralarında həqiqi hərbi xidmət borcunu yerinə yetirmişdir.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olub.

1967-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisad fakültəsini bitirib və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllim vəzifəsinə təyin edilib. Mahmud müəllim paralel olaraq ictimai və komsomol işini də aparıb. 1969-cu ildə İnstitutun Komsomol Komitəsinin I katibi seçilib. O vaxtdan dissertant olub. 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi adını almışdır.

M.Quluzadə 1975-ci ildə dosent vəzifəsinə təyin edilib. Həmin dövrdə komsomol və partiya işlərində çalışmışdır. Mahmud Quluzadə bir neçə monoqrafiya, çoxlu elmi məqalə, proqram və metodik göstəricilərin müəllifidir.

1977-ci ildə "İnsan amili və Azərbaycan SSR-in sosial-iqtisadi inkişafının sürətləndirilməsi" mövzusunda kitabı nəşr etdirmişdir. İnsan amili mətni ilk dəfə Mahmud Quluzadə tərəfindən iqtisad elminə daxil edilmişdir. 1992-ci ildə Moskva Kooperasiya Universitetinin Bakı filialına direktor vəzifəsinə təyin olunub. Həmin filial Mahmud Quluzadənin təşəbbüsü ilə Azərbaycan Kooperasiya Universiteti adlandırılaraq təşkil edilmişdir. O, 1993-1994-cü illərdə həmin universitetin rektoru vəzifəsində çalışmışdır. 1995-ci ildən hazıra kimi Azərbaycan Dövlət İqtisad Universitetinin Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi kafedrasında dosent, professor vəzifəsində çalışır.

"İnsan amili və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi" monoqrafiyasında Azərbaycan Respublikasının son illər ərzində baş verən ictimai, siyasi, iqtisadi və sosial dəyişikliklər ölkənin inkişaf tarixində özünəməxsus cəhətlərlə səciyyələnir və bütövlükdə keçid mərhələsi kimi qiymətləndirilir. Ən vacib və obyektiv hesab edilən bu dəyişikliklərin müstəqil ölkələrin bütöv iqtisadi sisteminin dünya təcrübəsinə əsaslanan bazar münasibətləri prinsipləri ilə qurulması zərurəti yaranmışdır. Bu dəyişikliklərdə gender məsələləri daha çox əhəmiyyət kəsb edir. Bu da təsadüfi deyildir.

Azərbaycan Respublikasının müstəqillik dövründə sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar, ölkə iqtisadiyyatının sıçrayışlı inkişafı, onun iqtisadi artım tempinə görə dünyanın lider ölkəsinə çevrilməsi, düzgün iqtisadi siyasətin həyata keçirilməsi və onun dövlət tərəfindən tənzimlənməsi ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə yenidən qayıdışı iqtisadiyyatın bütün sahələrində nailiyyətlərin əldə edilməsi ilə əlamətdardır.

Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən Ulu öndər bu dəyərlərin qorunmasının vacib olduğunu bütün çıxışlarında dönə-dönə qeyd edirdi. Müstəqil dövlətimizin Konstitusiyasının müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur.

Dünya təcrübəsi göstərir ki, keçid dövründə formalaşan iqtisadiyyatın dayanıqlığı və davamlı inkişafının təmin edilməsi həlledici dərəcədə bu mərhələdə həyata keçirilən struktur siyasətin xarakteri ilə birbaşa bağlı olur. Keçid dövründə dövlətin struktur siyasəti ölkədə həyata keçirilən iqtisadi siyasət sisteminin tərkib hissəsi olmaqla çoxşaxəli bir problemdir. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər; 2009-2013-cü illər) və "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında qoyulan strateji vəzifələrin - Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi vəzifəsinin yerinə yetirilməsində çox mühüm mərhələ hesab etmək olar.

Kitabın birinci fəslində müəllif "Gender və gender iqtisadiyyatının nəzəri-metodoloji əsasları"na toxunur. Müəllif yazır ki, insan amili mürəkkəb, çoxcəhətli və olduqca böyük əhəmiyyətə malik olan bir anlayışdır. Cəmiyyətin ümumi inkişafı, idraki qanunların dərk edilməsi, təbiət sirlərinin açılması, mürəkkəb mexanizmli robotların yaradılması, kosmosun fəth edilməsi, digər hansı sahəyə üz tutsan, orada insan əli olmadan keçinmək mümkün deyildir.

Müasir şəraitdə istehsalın intensivləşdirilməsi, onun səmərəliliyinin artırılması, qənaət rejiminin gücləndirilməsi, ümumiyyətlə, sosial-iqtisadi inkişafın sürətləndirilməsi ən mühüm problem kimi qiymətləndirilir. Çünki iqtisadiyyatın inkişaf etdirilməsi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması, cəmiyyət qarşısında duran vəzifələrin yerinə yetirilməsi ilk növbədə bu amillərdən asılıdır.

Kitabda "Gender və iqtisadi siyasət" və "Gender və sosial siyasət" məsələləri də öz əksini tapıb.

Müəllifin ikinci monoqrafiyası "İnsan amili və sosial sferanın inkişafında onun rolu" adlanır. Kitabda insan amili anlayışı insan şəxsiyyətinin keyfiyyət və qabiliyyət məcmusu kimi göstərilir.

Mahmud Quluzadənin digər monoqrafiyası da "İnsan amili və Azərbaycan Respublikası səhiyyəsinin inkişafı" adlanır. Sonuncu monoqrafiyada "İnsan amili və Azərbaycan Respublikası qeyri-neft sektorunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi"ndən bəhs edilir. Kitaba Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda insan amilinə söykənən inkişaf strategiyası uğurla həyata keçirilir" sözləri epiqraf kimi verilmişdir.

Onun monoqrafiyalarından biri "İnsan amili və Azərbaycan Respublikası qərb bölgəsinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi" adlanır. Azərbaycanın xalq şairi Səməd Vurğunun aşağıdakı şeiri kitabın epiqrafı kimi səslənir:

*İnsanın hünəri bir xəzinədir...*
*Nə qədər xərcləsən dünyada onu,*
*O da vaxt kimidir - görünməz sonu!*
*Lakin bu hünərin qədrini bilmək*
*Hər hünər əhlinə borc olsun gərək!*

Şair insanın hünərini, işini, əməyini "bir xəzinə" adlandırır. Kitabda elmi-texniki tərəqqinin inkişafı ilə xarakterizə edilən müasir inkişaf mərhələsində ictimai istehsalın təhlili ümumiləşdirilmiş, əmək ehtiyatları ilə əlaqədar olan problemlərin həlli, xalq təsərrüfatının işçi qüvvəsi ilə təmin edilməsi, bu sahədə görülən işlərdən və sosial-iqtisadi inkişafın mərkəzində insan amilinin dayandığı öz əksini tapmışdır.

Öz elmi, biliyi ilə yüksələn alimin əməyi həmişə layiqincə qiymətləndirilmişdir. Heç də təsadüfi deyil ki, 2018-ci il dekabrın 18-də Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradovun imzası ilə iqtisad elmləri namizədi, dosent - fəxri professor Mahmud Məmməd oğlu Quluzadə anadan olmasının 80 illiyi münasibətilə Fəxri Fərmanla təltif edilmişdir.

**İsmət SƏFƏROV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**"Qızıl Qələm" mükafatı laureatı.**